GÜNÜN SİYASİ NƏBZİ








# Türk millətinin taleyini dəyişən tarix

## 19 May - Atatürkü Anma, Gənclik və İdman Bayramı Günü Türkiyədə böyük coşqu ilə qeyd edilir

*Hər bir xalqın tarixində dönüş nöqtələri vardır ki, bu hadisələr milli kimliyin, azadlıq uğrunda mübarizənin və gələcəyə inamın təməlini qoyur. Türkiyə Cümhuriyyəti üçün bu dönüş nöqtəsi 19 may 1919-cu ildə baş verib. Həmin gün Mustafa Kamal Paşanın Samsuna çıxması ilə Anadolu torpaqlarında milli direniş başlayıb, bu hadisə Türk tarixində müstəqillik yolunun əsasını təşkil edib. 19 may tarixinin Atatürkü Anma, Gənclik və İdman Bayramı kimi qeyd olunması sadəcə tarixi xatırlamaq deyil, həm də gəncliyə verilən önəmin simvolik təzahürüdür. Bu səbəbdən Mustafa Kamal Atatürk tərəfindən 19 may tarixi Atatürkü Anma, Gənclik və İdman Bayramı kimi elan edilib. Bu tarix Osmanlı imperiyasının son mərhələsindəki çətinlikləri deyil, həm də bir millətin yenidən doğuluş ideologiyasını özündə əks etdirən bir gündür.*

Tarixə nəzər salaq:

Birinci Dünya müharibəsindən sonra qalib dövlətlər Osmanlı İmperiyasını parçalamağa başlayıb və ölkə torpaqları işğal olunub. 30 oktyabr 1918-ci ildə imzalanan Mudros Müvəqqəti Sülh Müqaviləsi Osmanlının faktiki olaraq işğal edilməsinə zəmin yaradıb. Bu şəraitdə Mustafa Kamal Paşa vətənin xilası üçün yol axtarıb.

1919-cu ilin yazında İngiltərə, Fransa, İtaliya və Yunanıstan kimi dövlətlər Osmanlı torpaqlarında müxtəlif bəhanələrlə işğala başlayıb. Xüsusilə 15 may 1919-cu ildə Yunanıstan ordusunun İzmirə daxil olması Türk xalqı üçün bardağı daşıran son damla olub. Bu xaotik vəziyyətdə 9-cu Ordu Müfəttişi təyin edilən Mustafa Kamal Paşa İstanbuldan Bandırma gəmisiylə yola çıxaraq 19 may 1919-cu ildə Samsun şəhərinə çatıb və milli mücadilədə ilk addımını atıb. Atatürk Samsuna çatanda şəhərdə İngiltərə ordusunun özbaşınalığı hökm sürürdü və xalq özünü müdafiə edə bilməyəcək vəziyyətdə idi. Bu səfər milli mübarizənin başlanğıcı olur və Atatürk bu günü gənclərə ithaf edir. Atatürk xalqı irəli aparanların və köhnəlmiş fikirlərə qarşı çıxanların gənclər olduğunu bildirir: "Gənc fikirli olmaq, doğrunu görmək və həqiqətən anlamaq deməkdir". Milli mübarizəni daha sağlam başlamaq və davam etmək üçün gənc fikirlərin önəmli olduğunu əsas tutan lider elə milli mübarizənin başlanğıcını da "gənc fikirlərə" həsr edir.






Atatürk Samsunda Anadolu xalqının milli şüurunu oyatmağa, təşkilatlanmanı qurmağa və silahlı direnişi formalaşdırmağa başlayır. Bu tarix türk xalqının əsarətə və işğala qarşı başlatdığı azadlıq savaşının başlanğıcı olub. Sonrakı illərdə bu mübarizə Türkiyə Cümhuriyyətinin qurulması ilə nəticələnib.

Atatürk 19 mayı sonralar belə ifadə edib: "Benim doğum günüm 19 Mayıs'tır". Bu ifadə onun üçün 19 may tarixinin sadəcə tarixi bir hadisə deyil, şəxsiyyətinin və siyasi missiyasının doğulduğu gün olduğunu göstərir.

Mustafa Kamal Atatürk gəncliyə xüsusi əhəmiyyət verən lider idi. Onun fikrincə, bir millətin gələcəyi onun gənclərinin şüuruna və əzmli ruhuna bağlıdır. 1936-cı ildən etibarən 19 may günü qeyri-rəsmi şəkildə Gənclik və İdman Bayramı kimi qeyd edilməyə başlansa da, 17 mart 1981-ci ildə qəbul edilən "Milli Bayramlar və Ümumi Bayramlar haqqında" Qanunla bu günün adı "Atatürkü Anma, Gənclik və İdman Bayramı" olaraq dəyişdirilib. Bu dəyişikliklə türk milləti hər il bu tarixi daha geniş miqyasda qeyd edir, Atatürk irsi yad olunur və gəncliyin əhəmiyyəti idmanın cəmiyyətdəki yerini dönə-dönə vurğulanır.

Beləliklə, bu bayram Atatürkün təhsilə, gəncliyə verdiyi önəmin göstəricisidir. Bu bayramın əsas məqsədi gənclərə tarixlərini və istiqlal mübarizəsinin dəyərini anladaraq onları milli dəyərlərə bağlı yetişdirməkdir. Eyni zamanda gənclər arasında idmanın və sağlam həyat tərzinin təşviqinə xidmət edir.

Texnoloji və qlobal çağın gətirdiyi çətinliklər qarşısında gənclərin milli kimliklərini qorumalar, sağlam və mənəvi dəyərlərə sahib vətəndaş kimi yetişmələr zəruridir. 19 may bayramı bu baxımdan yalnız keçmişi anmaq deyil, gələcəyi qurmaq üçün bir fürsət kimi qiymətləndirilməlidir.

Müasir Türkiyə Cümhuriyyətinin və ümumilikdə Türk dünyasının inkişafı üçün gənclik təhsildə, elmdə, idmanda və mədəniyyətdə öndə olmalıdır. Bu da Atatürkün gəncliyə olan güvənini doğrultmaq üçün əsas yoldur.

Türk milləti qurulduğu gündən bu yana 106 ildir ki, Atatürkün gənclərə qoyub getdiyi bu mühüm irs hər il mayın 19-da böyük coşqu ilə qeyd edilir və milli bayram hesab olunur. Bu baxımdan, 19 may 1919-cu il təkcə hərbi hərəkatın başlanğıcı deyil, həm də türk millətinin azadlıq iradəsinin təcəssümüdür. Atatürkü Anma, Gənclik və İdman Bayramı isə bu iradənin gəncliyə ötürülməsi və gələcək nəsillərin milli ruhda yetişdirilməsi baxımından xüsusi önəmə malikdir.

**Esmira YAZKAN ASLANOVA,**
**"Respublika" qəzetinin**
**Türkiyə üzrə müxbiri.**